**“Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında ? Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

AZ ?RBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişikliklər edilməsi haqqında ? Azərbaycan Respublikasının 2014-cü il 17 oktyabr tarixli 1079-IVQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

“Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında ? Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, 2, maddə 88; 2001, 11, maddələr 669, 676; 2002, 1, maddə 2, 5, maddələr 237, 243; 2006, 6, maddə 478; 2007, 8, maddə 756, 12, maddə 1197; 2008, 7, maddə 602, 8, maddə 701; 2009, 7, maddə 519; 2010, 3, maddə 171; 2013, 3, maddə 229, 5, maddə 470; 2014, 11, maddə 1336) 11-ci maddəsinin mətni aşağıdakı redaksiyada verilsin:

“Azərbaycan Respublikasında 10 gündən artıq müvəqqəti olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin 21-ci maddəsi ilə müəyyən edilmiş müddətdə və qaydada olduğu yer üzrə qeydiyyata alınmalıdırlar. ?.

**İlham ?LİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 3 aprel 2015-ci il
1253-IVQD